# ABŞ Ermənistanı niyə silahlandırır?

## İrəvanda "dəmir yumruğ"un zərbəsi üçün darıxmağa başlayıblar

**44 günlük Vətən müharibəsinin və antiterror tədbirlərinin nəticəsi olaraq respublikamız ərazi bütövlüyünü təmin edib, torpaqlarımızda erməni separatizminə son qoyulub. Bütün bunların davamı kimi Qazax rayonunun Ermənistanla sərhəddə yerləşən 4 kəndinin də azad edilməsi göstərdi ki, ərazi bütövlüyü məsələsində prinsipial olan Azərbaycan özünün dövlət və milli maraqlarını qətiyyətlə təmin edir.**







### ABŞ regionda gərginliyin qalmasında maraqlıdır

Hazırda Azərbaycan dövlətinin qarşıya qoyduğu əsas məqsədlərdən biri Ermənistanla sülh sazişinin imzalanmasıdır. Əgər Ermənistan hakimiyyəti özündə siyasi iradə taparsa, iki dövlət arasında sülh sazişinin imzalanması mümkündür. Amma Ermənistanın bu gün də davam etdirdiyi destruktiv əməllər, Qərblə əməkdaşlığın İrəvanı revanşizmə həvəsləndirməsi sülh prosesinə ciddi əngəllər və təhdidlər yaradır.

Məsələn, avqustun əvvəllərində ABŞ Hərbi Hava Qüvvələrinin iki hərbi təyyarəsinin İrəvanın Zvartnots hava limanına enişi heç bir halda Cənubi Qafqazla bağlı xoş niyyətdən xəbər vermir. Bu barədə ilk məlumatı yayan "Caliber.az" analitik-informasiya portalının qeyd etdiyinə görə, təyyarələrdə Ermənistana hərbi yük və ABŞ ordusunun şəxsi heyəti göndərilib. Artıq sosial şəbəkələrdə bunun görüntüləri də yayılıb.

Qeyd edək ki, hərbi yük əsasən snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, xüsusi təyinatlılar üçün zirehli gödəkçələr, hücum minidronları, kiçik ölçülü minalardan və ABŞ ordusunda istifadə olunan digər döyüş sursatlarından ibarətdir. Ermənistana göndərilmiş şəxsi heyət isə əksəriyyəti ABŞ ordusunda xidmət edən ermənisilli ABŞ vətəndaşlarıdır. Onlar Ermənistan ordusunun hərbi geyimi ilə təchiz olunub və Zəngəzurdakı hərbi bazada yerləşdiriliblər.

Məsələ ilə bağlı sualı cavablandıran Ermənistandakı ABŞ səfirliyi bu ölkəyə hərbçilərin və hərbi yükün göndərilməsini ABŞ və Ermənistan arasında keçirilmiş hərbi təlimlə əlaqələndirməyə çalışıb. "İyulun 24-də ABŞ və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal Tərəfdaş" təlimi uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, bütün Amerika texnikası və şəxsi heyəti Ermənistanı tərk edib" - deyə məlumatda bildirilib.

Əlbəttə, iyulun 24-də başa çatmış təlimin iştirakçılarının Ermənistana 9-10 gün sonra qayıdışı inandırıcı görünə bilməz və bu bir daha ondan xəbər verir ki, ABŞ Ermənistanı silahlandırmaqla regionda gərginliyin qalmasında maraqlıdır.

### Qərb sülh prosesinə əngəllər törədir

Buna qədər isə Azərbaycanın diplomatiya meydanında küncə sıxışdırdığı, müstəmləkəçi siyasətini qlobal səviyyədə ifşa etdiyi Fransa Ermənistanın silahlandırılması üçün əlindən gələni əsirgəmir. Bu ölkə tərəfindən heç bir zərurət olmadan Ermənistanın silahlandırılması məhz sülh prosesinin qarşısının alınmasına hesablanıb. Bütün bunlar hazırda da təcavüzkar siyasətdən əl çəkmək istəməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edir. Paris bu yolla həm də Ermənistandan istifadə edərək Cənubi Qafqazda möhkəmlənmək niyyəti güdür.

Bütövlükdə, özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən sözügedən Qərb dövlətlərinin Ermənistanı silahlandırmaları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir. Bu baxımdan Ermənistanın silahlandırılması qeyd etdiyimiz kimi, Qərbin regionla bağlı xoş olmayan niyyətindən xəbər verir.

Ermənistan isə sülh prosesinin irəlilədilməsi üçün yaranmış şansdan bəhrələnmək əvəzinə, bu kimi məsələlərlə yenə də manipulyasiyalarla məşğuldur. Əlbəttə, "dəmir yumruğ"un zərbəsini və verdiyi dərsi Ermənistanda heç vaxt unutmayacaqlar və unuda da bilməzlər. Görünən həm də odur ki, Ermənistanda "dəmir yumruğ"un zərbəsi üçün darıxmağa başlayıblar.

Ermənistan reallıqları düzgün dəyərləndirməli və öz tarixinin yeni səhifəsini yaratmaq üçün Azərbaycanla sülh sazişini bağlamaq şansını itirməməlidir. Əks təqdirdə, Qərb tərəfindən silahlanmanın heç bir mənası yoxdur. Çünki Azərbaycan yerində durub gözləmir və Ermənistan nə qədər silahlansa da, döyüş imkanları baxımından ölkəmizdən geri qalacaq. Qərb nə qədər silahlandırsa da, düşmən "dəmir yumruğ"un zərbəsindən heç vaxt müdafiə oluna bilməz.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 14 avqust (№ 172).- S.4.